*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2025, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 198-208* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2025.2.198*

# Kamalə Abiyevanın bədii yaradıcılığının problematikası, obrazlar qalereyası və bədii dilinin özəllikləri

**Salidə Şərifova**
Filologiya elmləri doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: ssharifova@rambler.ru
ORCID ID: 0000-0001-8788-6366

**Annotasiya.** Kamalə Abiyeva bədii yaradıcılığının problematikasında cəmiyyəti düşündürən aktual problemlərə poetik dillə münasibət bildirir. Onun Vətən mövzusunda qələmə alınmış şeirlərinin problematikasının ana xəttini Vətən mövzusu, Qarabağ həsrəti, Zəfər təntənəsi, Vətən müharibəsinin tərənnümü, Vətənə, xalqa məhəbbət duyğuları və s. təşkil edir. Kamalə Abiyeva bədii yaradıcılığının əsas problematikasında vətənə olan sevgisini, ehtiramını, həm də Azərbaycan torpaqlarının bölünməsinin acısını ifadə etməsi diqqətlərdən yayınmır.
Kamalə Abiyevanın bədii yaradıcılığının problematikasında yalnız ictimai-siyasi məsələlər deyil, təbiətlə, peyzajla bağlı hisslər də əksini tapmaqdadır.
Kamalə Abiyevanın poetik nümunələri bədii zənginliyi və müxtəlifliyi ilə seçilir. Şairin obrazlar qalereyasında şəhid, Vətən, müəllif "mən"i, Azərbaycan, ana və s. obrazlara rast gəlmək olar.
Şairin bədii əsərlərinin dil özəllikləri, istifadə etdiyi bədii dilin tərkibi, bədii təsvir və ifadə vasitələri özünəməxsus xüsusiyyətlərə malik olması ilə diqqəti cəlb edir. Bu zaman obrazlılıq, emosionallıq, ekspressivlilik və s. kimi xüsusiyyətlər və fərqliliklər özünü göstərir.
**Açar sözlər:** Kamalə Abiyeva, şair, poetik nümunələr, bədii əsərlər

**Məqalə tarixçəsi:** göndərilib – 10.09.2025; qəbul edilib – 24.09.2025

# The problematics of Kamala Abiyeva's artistic creativity, the gallery of images, and the features of her literary language

**Salida Sharifova**
Doctor of Philological Sciences, Associate Professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: ssharifova@rambler.ru
ORCID ID: 0000-0001-8788-6366

**Abstract.** In the problematic aspects of Kamala Abiyeva's literary creativity, she expresses her attitude toward socially significant and pressing issues in a poetic language. The central theme of her poems dedicated to the Motherland is formed by motifs such as love for the homeland, longing for Karabakh, the celebration of Victory, the glorification of the Patriotic War, devotion to the land and people, and others. In the core of Kamala Abiyeva's literary problematics lies the expression of her deep love and respect for the homeland, as well as the sorrow caused by the division of Azerbaijani lands, which does not escape attention.
In the problematics of Kamala Abiyeva's artistic creativity, not only socio-political issues are reflected, but also emotions connected with nature and landscapes.

Kamala Abiyeva's poetic samples are distinguished by their artistic richness and diversity. In the poet's gallery of images, one can come across such figures as the martyr, the Motherland, the lyrical self of the author, Azerbaijan, the mother, and others.
The linguistic features of the poet's literary works, the composition of the artistic language she employs, as well as the means of artistic depiction and expression, attract attention with their distinctive qualities. In this context, such characteristics and distinctions as imagery, emotionality, expressiveness, and lyricism become evident.
**Keywords:** Kamala Abiyeva, poet, poetic examples, artistic works

**Article history:** received – 10.09.2025; accepted – 24.09.2025

## Giriş / *Introduction*

Azərbaycan Yazıçılar Birliyinin üzvü Kamalə Abiyeva (1954) "Yağış yağır bu şəhərə" (1999), "Azərbaycan" (2003), "Bu dünyanı nağıl bilək" (2004), "Vətən bir də doğulmur" (2007), "Gizlənqaç" (2014), "Tapmaca" (2016), "İrəvanda diz qoysam" (2019), "Torpaq" (2022), "Bir sevgi" (2023), "O adam" (2024) və s. şeirlər toplusunun müəllifi kimi Azərbaycan söz sənətində imzası olan şairlərimizdəndir. Kamalə Abiyeva "41-Astara şəhidləri" (2021), "21-Bakı şəhidləri" (2024), "DTK-nın qorxunc sirri" (Aleksey Matviyenko, 2016), Firəngiz Əhmədova – Səs ömrü (2017), "Varlan" (İsak Pintoseviç, 2020) və s. kitab və tərcümə əsərlərinin də müəllifidir.

Bədii yaradıcılığına tələbəlik illərindən başlamış Kamalə Abiyevanın şeirləri bu gün də oxucular tərəfindən böyük rəğbətlə qarşılanır. Azərbaycan şairi Kamalə Abiyevanın şeirlərinə mahnılar da bəstələnməkdədir. 2003-cü ildə keçirilən "Nəğmələrin nəğməsi" müsabiqəsinin qalibi Kamalə Abiyevanın şeirlərinə Oqtay Kazımov, Emin Sabitoğlu, Kamal, Aygün Səmədzadə, İqbal Ağayev, Gülşən Rafiqqızı, Aytən İsmixanova, Qismət, Elçin İmanov, Bikə Axundova, Tahir Əkbər, Aynur Adil qızı və digər bəstəkarlar tərəfindən "Müəllim", "Özün günahkarsan", "Vətəni anlat", "Azərbaycan", "Qocaldım, Ana!", "Bakı haqqında nağıl", "Neynim", "Qarabağım", "Gəl", "Bir sevgi", "Rəsulzadə türküsü", "Son zəng", "Ay böyüyən sevincim", "Özün günahkarsan", "Görüşərik, ayrılarıq", "Yarpaqlar titrəsə", "Məktəb illəri", "Bakım", "Vətən savaşı" və s. mahnılar bəstələnmişdir.

Şeirləri rus, türk, ingilis, özbək, belarus və digər xarici dillərə tərcümə edilməkdədir. Ədəbiyyat sahəsində xidmətləri olan Kamalə Abiyevanın kim olmasına aydınlıq gətirmək üçün müsahibələrinin birində ona ünvanlanmış "Kamalə Abiyeva kimdir?" sualına şairin verdiyi cavab ilə aydınlıq gətirək: "Özünə məsuliyyətlə, özünə və başqalarına hörmətlə yanaşan, həqiqəti qoruyan, ədaləti sevən biridi – İnsandı. Xalqını sevən vətəndaşdı" [10].

## Əsas hissə / *Main Part*

### Kamalə Abiyevanın poetik nümunələrinin problematikası

Kamalə Abiyevanın bədii yaradıcılığının problematikası zəngin olduğu qədər, rəngarəngdir. Şair yaradıcılığında cəmiyyəti düşündürən aktual problemlərə poetik dillə münasibət bildirir. Onun qələmə alınmış "Azərbaycan-qalibiyyət dünyası", "Qarabağım", "Vətən savaşı", "Sən elə azadsan", "Doya bilsəydim", "Vurğunam" və s. şeirlərinin problematikasının ana xəttini Vətən mövzusu təşkil edir. Və bu zaman Vətən mövzusu, Qarabağ həsrəti, Zəfər təntənəsi, Vətən müharibəsinin tərənnümü, Vətənə, xalqa məhəbbət duyğuları və s. əsas yer tutur. Kamalə Abiyeva Cənubi Azərbaycan haqqında olan düşüncələrini də bədii yaradıcılığının əsas problematikasına çevirir. "Urmu gölünə", "Araza" kimi şeirləri bu baxımdan diqqəti cəlb edir. "Ağrı" şeirində həm vətənə

olan sevgisi, ehtiramı, həm də Azərbaycan torpaqlarının bölünməsinin acısını ifadə etməsi diqqəti çəkir:

*İllərdi Borçalım gözü yaşlıdı,*
*Dərbənd həsrətində bəndə düşmüşəm.*
*İllərdi elə bil başım daşlıdı,*
*Elə bil çarəsiz dərdə düşmüşəm...* [1]

Qarabağ hadisələri ilə bağlı yazdığı şeirlərdə xalqın mənəvi-əxlaqi dəyərləri prizmasından mübarizəyə çağırış bədii detallarla təqdim edilir. Qarabağ haqqında düşüncələrini poetik dillə təqdim edən Kamalə Abıyeva şeirlərində məhz Vətənə olan sevgisini, Qarabağ yanğısını göstərir. Məsələn, Gülşən Rafiqqızı tərəfindən musiqi bəstələnmiş, Vüsal Hacıyev tərəfindən ifa olunan "Qarabağım" adlı şeirinin mətnində şairin Qarabağ nisgili ilə yanaşı, Zəfər təntənəsi yer almaqdadır:

*44 günə sənin boyda böyüdüm mən,*
*böyüdüm ki, səni görəm, səni sevəm.*
*heç doyunca görməmişdim səni axı,*
*Gördüm səni əsgər-əsgər, igid-igid,*
*gördüm səni Qarabağım.*
*Heç doyunca sevməmişdim səni axı,*
*sevdim səni şəhid şəhid,*
*sevdim səni Qarabağım.* [4, s.13]

Qarabağa sevgi, Zəfərin tərənnümü, Vətən müharibəsinin təntənəsi şairin digər poetik nümunələrində də yer alır. İqbal Ağayev tərəfindən musiqi bəstələnib, Kənan Qədimov tərəfindən ifa olunan "Vətən savaşı" adlı poetik nümunədə də bunun şahidi oluruq. Göründüyü kimi, Vətən müharibəsi Kamalə Abiyevanın yaradıcılığında özünəməxsus yer tutan ana xəttə çevrilmişdir. Bu məqam onun yaradıcılığında ictimai-siyasi mövzulu şeirlərin çoxluq təşkil etməsini təsdiqləyir.

"Son sevgimsən" şeirində şair Vətənə olan sevgisini maraqlı ədəbi üsulla təqdim edir. Şeirin problematikasında sevginin sual axtarışına cavab verilməsinə cəhdi maraq doğurur. Şair sevginin ümumi məfhum olmasına rəğmən, onların fövqündə Vətənə, torpağa olan sevginin ali hiss olmasını poetik dillə tərənnüm edir. O, bu sevgini "son sevgi" adlandıraraq vətənə olan duyğularını təbliğ edir.

Kamalə Abiyevanın "Azərbaycan", "Vurğunam", "Vətən", "Doya bilsəydim" və s. bu kimi şeirlərində Azərbaycanın bütövlüyünə olan ehtiramı, sevgisi əksini tapır. Məsələn, "Azərbaycan" adlı şeirində Azərbaycana olan sevgi və ehtiram incəliklə tərənnüm edilir.

*Sevgi dolu ürəyimsən,*
*möhtacınam sənin hər an.*
*Qovuşaram torpağına*
*sevgin ilə Azərbaycan.* [4, s.22]

"Araza", "Urmu gölünə" kimi şeirlərində Kamalə Abiyeva Cənubi Azərbaycana bağlılığını əks etdirir. Şair Cənubi Azərbaycanı bütöv Azərbaycan kimi poetik dillə təqdim etməyə nail olur. O, "Urmu gölünə" şeirində Cənubi Azərbaycanın Şimali Azərbaycandan qoparılmasının sağalmaz yara kimi əsrlərlə davam etməsini əks etdirir:

*Azərbaycan, bu nə tale yazısı,*
*Hər tərəfdə canının bir parası.*
*Yüz illərdi dərmanım yox, dərdin*
*Sağalmır ki, ürəyinin yarası.* [4, s.19]

“Araza” şeirində də bir xalqı ikiyə bölən sədd kimi qiymətləndirilən Arazın Azərbaycanı ikiyə bölməsinin poetik dillə təqdimi özünü göstərir:

Kamalə Abiyeva Araz çayını bir milləti iki yerə bölməsinə rəğmən, ona kin-küdurət hissi ifadə etmir, əksinə, böyük sevgi ilə təqdim edir. Düzdür, baş verən hadisələrə hiddətini poetik dillə əks etdirir, ancaq Araz çayının möhtəşəmliyinə, məğrurluq rəmzi olmasına xələl gətirmir:

*Tarixin ən qübarlı*
*səhəri sənə düşüb.*
*Bölünən ürəklərin*
*kədəri sənə düşüb...* [4, s.19]

Kamalə Abiyevanın şeirlərində yalnız ictimai-siyasi məsələlər deyil, təbiətlə, peyzajla bağlı hisslər də qələmə alınmışdır. Onun “Yağış” şeiri bu silsilədəndir. “Yağış yağır, bu, göyün sevgimizə heyrətidir”, – deyə sevgini simvollaşdırmağa cəhd edir. Sevginin hər şeydən təmizlənərək paklanmasına, paklığına işarə etməklə yanaşı, nakam sevgi üçün göz yaşlarının böyüklüyünü yağışla, təbiətin ağlaması ilə müqayisə etməsi maraqlı ədəbi priyom kimi təqdim edilir.

Kamalə Abiyeva “Görəsən” adlı şeirində insan hisslərini təbiət hadisələri fonunda tərənnüm edir:

*Ürəyim buludludu, ürəyim dolub yenə.*
*Könül həmdəm olubdu*
*göylərə bu gün yenə…*
*Əgər göylər ağlasa, ürəyi boşalacaq,*
*buludlar dağılacaq, üzü güləcək yenə.*
*Hönkürüb ağlasam mən,*
*qan-yaş töksəm gözümdən*
*qəlbimdəki buludlar dağılarmı görəsən?..* [9]

Peyjazla bağlı poetik tərənnüm şairin “Bir payız” şeirinin problematikasında da yer alır:

*Bir payız gecəsində*
*evimin bir küncündə*
*payız gecəsinə düşdüm, üşüdüm...*

Şair payız fəslinin fonunda hisslərini sonuncu misrada yekunlaşdıraraq münasibətini sərgiləyir: “bir payız gecəsi adam özünə bənzəməz...” [7].

Kamalə Abiyevanın yaradıcılığında Bakı haqqında şeirlər silsilə təşkil edir. Şair Bakıya olan sevgisini, ehtiramını “Bakı haqqında nağıl”, “Bakım”, “Bakıma”, “Xəzərim” və s. şeirlərində oxucusuna çatdırır.

“Bakı haqqında nağıl” şeirinin problematikasının nağıl başlanğıcı ilə başlaması xalq yaddaşına işarədir. Kamalə Abiyeva şeirini “Bu dünyada nağıl çoxdur, Hamısı da belə başlar, Biri vardı, biri yoxdur...” misraları ilə başlaması bizə nağıllardakı nağıl başlanğıcını yada salır. Bu da şair tərəfindən xalqın qan yaddaşı ilə bağlı olmasını əks etdirir. Xalqın tarixi yaddaşına əsaslanaraq şairin Bakıya olan sevgi və ehtiramı şeirdə ifadə edilir:

*Mənim də öz nağılım var.*
*İstəyirəm danışım*
*mən bir dənizin sahilində*
*nağıl olan şəhərimdən.* [4, s.17]

Kamalə Abiyevanın yaradıcılığında nağılla bağlı məqamlara yalnız Bakı ilə bağlı şeirlərində deyil, başqa şeirlərinin problematikasında müraciət edilir. Məsələn, “Mənə nağıl danış” şeirində də bunun şahidi oluruq:

*Mənə nağıl danış, nağıl, nə olar,*
*Gecənin zülməti məni sıxmasın.*
*O Simurq quşunu çağır nə olar,*
*İşıqlı dünyaya məni aparsın.* [4, s.28]

Qeyd etmək lazımdır ki, “Bakı haqqında nağıl” şeirinə Aygün Səmədzadə “Bakım” şeirinə Elçin İmanov tərəfindən musiqi bəstələnmiş, hər iki mahnını Eyyub Yaqubov ifa etmişdir.

Kamalə Abiyeva bir qadın kimi ana, qadın sevgisinə biganə qalmır. Şeirlərinin problematikasında bu məqamı geniş açıqlayır. Məsələn, “Qocaldım, Ana!”, “Bir layla de”, “Bir körpə yatırdı” və s. şeirlərinin problematikasında anaya olan sevginin, qadın böyüklüyünün və s. aparıcı yer tutmasının şahidi oluruq. Kamalə Abiyeva “Bir layla de” adlı şeirində ana obrazını canlandırarkən onu keçmiş və bu gününün prizmasından təqdim edərək, şeirin mövzusunda anaya olan məhəbbəti, onun fədakarlığını tərənnüm edir:

*Bir layla de, layla, ana,*
*bir az sakit, bir az rahat yata bilim,*
*o nağıllı uşaqlığın əllərindən tuta bilim,*
*Gecələrin sükutunu ürəyimdən ata bilim.* [4, s.32]

“Bir körpə yatırdı” adlı şeirində də şair ananın möhtəşəm obrazını yaratmaqla, şeirin problematikasında ana müqəddəsliyi ilə yanaşı, ana zəhmətini, ana qayğısını poetik dillə tərənnüm edə bilir:

*Bir körpə yatırdı,*
*bütün kainat*
*bir ülvi müqəddəs yuxu görürdü.*
*Bir körpə yatırdı arxayın, rahat,*
*çünki keşiyində Ana dururdu.* [4, s.26]

Kamalə Abiyevanın bədii yaradıcılığında sevgi hisslərini tərənnüm edən poetik nümunələr çoxdur. Bu sevgi özünü müxtəlif aspektdən göstərir. Doğma insanlara, yəni ataya, anaya, övlada olan sevgi, Vətənə, torpağa, xalqa olan sevgi və s. baxımından özünü büruzə verir. “Ürəklərdə ölməyin” adlı şeirində isə insanlara, onların etdikləri yaxşılıqlara, yəni xeyirxah əməllərə sevgi tərənnüm edilir. Şair şeirdə insanlara çağırış edərək, bir-birilərinə dəyər verməyə, sevməyə, “Çalışın ki, ürəklərdə ölməyin siz” deyə səsləyiş edir:

*Ey insanlar,*
*bir arzum var hamınıza*
*Yaşamağı çox da asan bilməyin siz.*
*Bu dünyadan köçəcəyik əvvəl-axır,*
*Çalışın ki, ürəklərdə ölməyin siz.* [4, s.33]

“Son sevgimsən” adlı şeirdə Kamalə Abiyevanın “son sevgimsən” deyə müraciət etdiyi tərəf diqqəti cəlb edir:

*Səni bütöv sevirəm mən.*
*İlk sevgilim deyilsən sən*
*– Son sevgimsən.* [4, s.11]

Bu bənddə “son sevgimsən” deyə ünvanladığı sevginin ünvanı isə hamımızın əzizi, şərəfi, müqəddəsi olan Vətəndir. F.e.d. Vaqif Yusiflinin vurğuladığı kimi “bu sevginin obyekti İnsan deyil, sevgili deyil – Vətəndir” [6, s.4]. Şair şeirin əvvəlində bu məqamı açıqlayır:

*Səni bütöv sevdim elə.*
*Hər daşını əzizlərəm,*
*hər ağrını ovudaram.*
*Yadlardakı hər qarışın dərd evimdir.* [4, s.11]

Kamalə Abiyevanın sevgi məfhumu yalnız insanların bir-birinə olan sevgisini deyil, onları aşa bilən daha böyük bir məfhumu əhatə edir: Vətənə, torpağa, xalqa olan sevgini… Tədqiqatçıların vurğuladığı kimi, "Bu sevgi onun şeirlərində yaşayır" [11, s.6].

**Kamalə Abiyevanın poetik nümunələrində obrazlar**

Kamalə Abiyevanın poetik nümunələrində bədii obrazlar həm geniş, həm də qısa, bəzən isə açıq-aydın şəkildə, bəzən üstüörtülü, eyhamlı şəkildə təqdim edilir. Bu amillərə baxmayaraq, şairin poetik dünyasında görünən obrazlar zəngin və müxtəlif olması ilə seçilirlər. Şairin obrazlar qalereyasında şəhid, Vətən, müəllif "mən"i, Azərbaycan, ana və s. obrazlarla üzləşmək olar.

Kamalə Abiyevanın şəhidlərə məktub şəklində yazdığı "Sən elə azadsan" adlı şeirində canını doğma Vətəninə fəda etmiş şəhidlərin ümumiləşdirilmiş obrazı canlandırılır. Şeirdən bir bəndə diqqət yetirək:

*Bu torpaq uğruna fəda etdiyin*
*həyatına qurban, özünə qurban.*
*Bağrımı yandıran son nəfəsinin*
*"Vətənim sağ olsun" sözünə qurban.* [4, s.8]

Şair Vətən uğrunda canından keçən bu ölməz qəhrəmanların fiziki məhv olmalarına rəğmən, əbədiyaşar olmalarını açıqlamağa nail olur. Şairin "Şəhidlərə", "Sənin arzuların", "Vətən savaşı" və s. şeirlərində ölməz şəhidlərimizin obrazı yaşadılır. Kamalə Abiyevanın şəhidlərin Vətənə dönməsini poetik dillə tərənnüm etməsi şairin sənətkarlığının təsdiqləyicisidir:

*Sən ki arzuladın Vətən olmağı,*
*Qəlbin bu arzuyla məşələ döndü.*
*Sən elə sevdin ki, ana torpağı*
*Torpağa qarışıb Vətənə döndün.* [3, s.40]

Şairin əksər şeirlərində obraz kimi müəllif "mən"i çıxış edir. Bu müəllif "mən"i Ana Vətən də ola bilir, ana da, körpə də ola bilir, şəhid də... yəni müəllif "mən"i şairin şeirlərində bir çox obrazlarda çıxış edir. Məsələn, "Mənə nağıl danış" adlı şeirdə müəllif "mən"i nağıl istəyən bir şəxsin obrazı kimi təqdim edilir. Bu, yaşlı insan da ola bilər, körpə uşaq da. Məsələn, şeirdən bir bəndə diqqət edək:

*Mənə nağıl danış, nağıl, ay ana,*
*Yatım bu dünyadan bir az xəbərsiz.*
*Yatım yuxularda nağıllar görüm,*
*Yatım körpə kimi qəmsiz, kədərsiz.*

"Azadlıq" şeirində isə azadlıq arzusunda olan müəllif "mən"i vətəndaş qismində çıxış edir:

*Ruhun azadlıq sevər.*
*Azadlıq istər.*
*Azadlığı geyinər, sevinər.* [3, s.55]

Kamalə Abiyevanın "Anladığım həqiqət", "İnanmadım" və digər şeirlərində kamil, dolğun ana obrazı canlandırılır. "İnanmadım" şeirində anasını fiziki itirmiş, lakin mənən onunla yaşayan qadının ana sevgisində ananın obrazı canlandırılır.

*Ana, səni özlədim*
*Ana, səni gözlədim...*
*Hey yol çəkdi gözlərim*
*Bu yol gedər-gəlməzdi,*
*Kimsəni də bir daha*
*Geriyə gətirməzdi.*

"Anladığım həqiqət" şeirində də şairin anayla bağlı nisgilli dünyasının olmasına rəğmən, ananın əvəzolunmazlığı, həyatda tutduğu mövqeyi obraz səviyyəsinə qaldırılaraq təqdim edilir:

*Eşidərək səsini, duyaraq nəfəsini,*
*Açan çiçəyə, gülə baxmaqdan daha gözəl,*
*heç nə yoxmuş dünyada.*
*Elə sənin yanında gözəl imiş dünya da.*

Şair bütün gözəlliklərin fövqündə ana varlığının olması ilə yanaşı, onunla bir olma məqamının səadət olmasını, həyatı dərk etməyimizə yol göstərmələrini sərgiləməyə də qadir olur.

"Qocaldım, ana" şeirində Anaya olan sevgi fonunda ana obrazı təqdim edilir:

*Sənsiz sevinmək də necə çətindir,*
*Bölünmür sevincim, artır ağrılar.*
*Dərd-sərin içimdə gəzirəm indi,*
*Tək sənə deməyə ehtiyacım var.* [4, s.11]

Kamalə Abiyevanın ana obrazı içərisində şəhid anasının obrazı diqqəti cəlb edir. "Şəhid anası" şeirində şair şəhid analarının ümumiləşdirilmiş obrazını canlandırır:

*Ağlama, gözünün yaşını sil sən*
*Sənin göz yaşında Vətən boğular.*
*Ay müqəddəs qadın, sənin bətnindən*
*Oğul doğulmayıb, Vətən doğulub.* [8]

F.e.d. Lütviyyə Əsgərzadənin vurğuladığı kimi, "Kamalə xanımın şeirləri bütövlükdə Vətənimizə, Şəhidlərimizə, şəhid analarına sitayişdir, duadır" [5, s.11]. Kamalə Abiyeva şeirlərində də ana əzəmətini üstün tutaraq, anaya məhəbbəti qüvvətli şəkildə səsləndirir. Şairin ana ilə bağlı şeirlərindəki ana obrazı ilə onun şəxsiyyətinin də birləşməsinin şahidi oluruq və Ana obrazının simasında özünün də bir ana kimi arzu və istəklərini, düşüncələrini səsləndirir. Bunu ən çox müəllif "mən"ində özünü büruzə verən xoş niyyətin təbliğində müşahidə edirik.

**Kamalə Abiyevanın poetikasının bədii dil özəllikləri**

Kamalə Abiyevanın bədii yaradıcılığından bəhs edərkən poetik nümunələrinin bədii dilinə toxunmamaq qeyri-mümkündür. Şairin bədii əsərlərinin dil özəllikləri, istifadə etdiyi bədii dilin tərkibi, bədii təsvir və ifadə vasitələri özünəməxsus xüsusiyyətlərə malik olması ilə diqqəti cəlb edir. Bu zaman obrazlılıq, emosionallıq, ekspressivlilik və s. kimi xüsusiyyətlər və fərqliliklər özünü göstərir. Kamalə Abiyevanın şeirlərində istifadə etdiyi söz və ifadələr daha çox məcazi məna daşıyır, metafor, metonimiya, təkrir, bədii təzad, bədii sual, xitab, arxaik sözlər və s. vasitəsilə canlı və təsirli ifadə edilir.

Kamalə Abiyevanın poetik nümunələrində xüsusi intonasiya və fasilə ilə ayrılan, ismin adlıq halında işlənən xitaba müraciəti maraq kəsb edir. Məsələn, şairin "Vətənim" adlı şeirində xitaba müraciət diqqətdən yayınmır.

*Eşqin ilə alışım,*
*torpağına qarışım,*

*hər daşı, hər qarışı*
*bol sərvətsən, Vətənim.* [4, s.31]

Müəllif bu poetik nümunəsində “Vətənim” deyə xitabdan istifadə edir. Bəllidir ki, xitab, əsasən, isim və ismi birləşmələrlə ifadə olunur, ismin adlıq halında olur. Şeiri oxuduqca, məhz “Vətənim” sözünün xüsusi intonasiya ilə deyildiyini, digər sözlərdən kiçik fasilə ilə ayrıldığını da müşahidə edirik. “Vətənim” şeirində şair xitabı cümlənin sonunda işlədir. Kamalə Abiyeva “Bu sevgidir” adlı şeirində isə “əzizim” deyə xitaba müraciət edir:

*Haray salıb sevincdən*
*İndi sənli günlərim.*
*Necə deməyim ki, mən,*
*Bu sevgidir, əzizim.* [2, s.39]

Şairin istifadə etdiyi xitabın cümlə ilə məna əlaqəsi olsa da, sintaktik əlaqə olmamasının, nitqin qüvvətləndirilməsi üçün işlənilməsinin şahidi oluruq.

Kamalə Abiyeva arxaik sözlərdən də istifadə edir. Məsələn, şairin türk dillərində “ər” (igid, qəhrəman) sözündən yaranmış “ərən” sözünü “igid”, “cəsur insan”, “mənəviyyat sahibi” mənalarında işlətməsini “Qarabağım” adlı şeirində müşahidə edirik:

*Ərənlərim...*
*Sizdən sonra yağış yağır...*
*Sizdən sonra dayanmır yağış,*
*dəyişib yağış da...*
*Ana, ata, bala,*
*sevgili səsi var yağışda.* [4, s.13]

Bəllidir ki, türk xalqlarının inanclarında ərənlər həm döyüşçü, həm də mənəvi dərinliyi olan şəxslər kimi qəbul edilmişdir. “Ərən” sözünün “dünyagörmüş”, “müdrik”, “ağıllı” adam mənasında da işlədilməsi ilə üzləşirik. Kamalə Abiyevanın bu poetik nümunəsində işlədilən “Ərənlərim” ifadəsi hər məqamda yerini tutur. Poetik nümunənin məğzinə vardıqda isə, əsasən, döyüşçü kimi təqdim edilməsinin şahidi oluruq.

Bədii ifadə vasitəsi kimi istifadə etdiyi ritorik suallardan məharətlə istifadə Kamalə Abiyevanın bədii yaradıcılığına xasdır. Şairin “Unut” adlı şeirində bədii suallardan istifadə edilməsi diqqətdən yayınmır:

*O gözlərdən həyatına boylandınmı?*
*O saçlarda dolandınmı?*
*Sən kədəri heç gördünmü?*

Bu bənddə ünvanlanan “həyatına boylandınmı?”, “saçlarda dolandımı?”, “kədəri heç gördünmü?” və s. sualları cavablandırmaq əvəzinə, sadəcə, “bütün dərdlərini unut” deyə təsəlli verir. Poetik nümunədən bir hissəyə diqqət edək:

*Boynubükük bir tanın*
*Gözlərində cığır salan,*
*Bir ananın saçlarında dən-dən olan*
*Dərd gördünmü?* [3, s.39]

Bədii suallardan poetik nümunənin emosional təsirini artırmaq məqsədilə fikirlərini sual tərzində çatdırmaq istəyən şair bunu digər şeirlərində də əks etdirir. Məsələn, “Axı” adlı şeirində şair ünvanladığı suallara cavab almaq, hər hansı bir məlumatı dəqiqləşdirmək məqsədi daşımır:

*Biz eyni əzabla oyandıq axı...*
*Bircə ayrılığın əsiri olduq.*
*Bütün əzablarla barışdıq axı,*
*Niyə xoşbəxtlikdən küsülü qaldıq?* [2, s.39]

Kamalə Abiyeva sevən insanların ayrılıq səbəbinin ağırlığını, faciəsini canlandıra bilsə də, cavablandıra bilmədiyi ritorik suala müraciət etməklə fikrini daha emosional şəkildə ifadə etməyə cəhd edir.

Kamalə Abiyevanın şeirlərində məzmunca bir-birinə zidd iki anlayış və vəziyyətin qarşılaşdırılması ilə də üzləşmək mümkündür. Bakıya həsr etdiyi “Bakıma” adlı şeirində şair Bakını bədii təzadla təqdim edir. Şairin antiteza, yəni əksmənalı sözlərin qarşılaşdırılması ilə təqdim etdiyi bədii təzada nəzər salaq:

*Köhnə Bakım, təzə Bakım*
*tarixindən qoparılan,*
*sökülən daşların kimi*
*başıma yağan kədərim.* [4, s.16]

Bu bənddə “köhnə” və “təzə” sözləri əksmənalı anlayışların, yəni antonimlərin qarşılaşdırılmasıdır.

Kamalə Abiyeva “Son sevgimsən” adlı şeirində də bədii təzaddan istifadə edir:

*Sən uğruna öləcəyim,*
*sən uğruna yaşadığım varlığımsan*
*– ana Vətən.* [4, s.11]

Bu misrada şair bir-birinə zidd iki vəziyyəti təqdim etməklə kontrast yaradır. Bu kontrastda “uğruna öləcəyim”, “uğruna yaşadığım” sözlərlə iki zidd vəziyyət kimi hərəkətlər qarşılaşdırılır.

“İnanmadım” şeirində də dünyasını dəyişmiş ananın yoxluğunu çatdırmaq üçün şair bədii təzada müraciət edir:

*nağıllarda gedər-gəlməz yollar vardı*
*Amma o nağıllarda gedənlər qayıdardı.* [7]

Şair bir sətirdə gedər-gəlməz kimi bədii təzada müraciət edərək fikirlərini sənətkarlıqla ifadə edir.

Kamalə Abiyevanın şeirlərində təkrirlərdən istifadə məqamı da diqqətdən yayınmır. Belə ki, eyni sözün və ya söz qrupunun bilərəkdən təkrar edən şair təkririn, əsasən, iki növünü, yəni anafora və epiforadan istifadə edir. Bədii əsərin təsir gücünü artırmaq məqsədi ilə sözləri təkrar edən şair bunu həm ayrı-ayrı poetik nümunələrin tərkibində, həm də eyni poetik nümunənin içərisində təkririn anafora və epifora kimi növlərindən istifadə edir. Məsələn, şairin “Doya bilsəydim” adlı şeirində Kamalə Abiyeva həm anafora, həm də epiforaya müraciət edir:

*Eşqində yuyuna-yuyuna,*
*Köksümdə döyünə-döyünə,*
*çöl-çəmənini görə-görə,*
*gül-çiçəyini dərə-dərə həsrətəm.*

Bu bənddə yuyuna, döyünə, görə, dərə sözləri misraların sonunda işləndiyindən epifora hesab edilir.

*Həsrətim bircə damcı azalardı,*
*həsrətim bircə damcı az olardı.*

"Həsrətim bircə damcı" ifadəsi ilə başlanan misradakı bu ifadə isə təkririn anafora növünə aiddir.

Kamalə Abiyevanın şeirlərində predmetin müəyyən əlamətinin başqa bir predmetinin üzərinə köçürülməsinin tez-tez şahidi oluruq. Şairin istifadə etdiyi istiarənin "Görəsən" şeirində işlənilməsi məqamına diqqət yetirək:

*Əgər göylər ağlasa, ürəyi boşalacaq,*
*buludlar dağılacaq, üzü güləcək yenə.* [9]

Kamalə Abiyeva "göylər ağlasa, ürəyi boşalacaq" misrasında ağlamağı insana xas olan əlamət kimi buluda, təbiət hadisəsinin üzərinə köçürür. İnsanın ağlamaq kimi əlaməti buludun üzərinə köçürülsə də, insanın adı çəkilmir. Şairə bənzədilən, yəni insan sözündən istifadə etmir, çünki göylər yox, insan, hər hansı bir canlı ağlaya bilər.

Kamalə Abiyevanın poetik nümunələrində predmeti bildirən söz əvəzinə, onunla əlaqədar başqa söz işlətməsi maraqlı alınır. Şairin metonimiyaya tez-tez müraciət etməsi ilə üzləşmək mümkündür. Məsələn, "Azərbaycan – qalibiyyət dünyası" adlı şeirində metonimiyanın işlənilməsi sənətkarlıqla həyata keçirilir:

*Torpağını geyinərəm əynimə,*
*Kür, Arazı axıdaram könlümə.*
*Xəzərimi məlhəm edib gələrəm,*
*Ey Vətənim, dəyən olsa könlünə.* [4, s.7]

Burada Kür, Araz, Xəzər metonimiya kimi işlənilir.

## Nəticə / *Conclusion*

Kamalə Abiyevanın bədii yaradıcılığının problematikasının ana xəttini Vətən mövzusu, Vətən müharibəsinin tərənnümü, doğma Bakının vəsfi təşkil edir.

Şair yalnız Vətəni, Bakını, Vətən müharibəsinin zəfərini, ananı şeirlərinin problematikasında qabartmır, onları obraz səviyyəsinə də qaldırır. Kamalə Abiyevanın bədii yaradıcılığında şəhid, şəhid anası, müəllif "mən"i kimi obrazların kamil şəkildə təqdimi ilə də üzləşirik. Şairin poetik nümunələrinin bədii dil özəllikləri, xüsusilə də istifadə etdiyi bədii dilin tərkibi, bədii təsvir və ifadə vasitələri kamilliyi və dolğunluğu ilə şeirlərində əksini tapır.

## Ədəbiyyat / *References*


1. Abiyeva Kamalə. Ağrı // https://edebiyyatqazeti.az/news/poeziya/10572-tanrim-meni-xatirla
2. Abiyeva Kamalə. Bir sevgi. – Bakı: Elm və təhsil, 2024, 144 s.
3. Abiyeva Kamalə. O adam. – Bakı: Elm və təhsil, 2024, 128 s.
4. Abiyeva Kamalə. Torpaq. – Bakı: APOSTROF-A, 2022, 144 s.
5. Əsgərzadə Lütviyyə. Torpağını geyinərəm əyninə // Abiyeva Kamalə. O adam. – Bakı: Elm və təhsil, 2024.
6. Filologiya elmləri doktoru Vaqif Yusifli yazır // Abiyeva Kamalə. O adam. – Bakı: Elm və təhsil, 2024.
7. https://525.az/news/35272-kamale-abiyevanin-seirleri
8. https://edebiyyatqazeti.az/news/poeziya/10572-tanrim-meni-xatirla
9. https://www.adalet.az/pdf-news/posts/detail/kemale-abiyeva-goresen-1708153821
10. Kamalə Abiyeva ilə səmimi söhbət // https://ustacaz.wordpress.com/2021/08/20/k%C9%99mal%C9%99-abiyeva-il%C9%99-s%C9%99mimi-sohb%C9%99t/
11. Muxtarova Təbəssüm. Sevimli şairimə // Abiyeva Kamalə. Torpaq. – Bakı: APOSTROF-A, 2022, 144 s.

## Проблематика художественного творчества Камалы Абиевой, галерея образов и особенности художественного языка

**Салида Шарифова**
Доктор филологических наук, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: ssharifova@rambler.ru
ORCID ID: 0000-0001-8788-6366

**Резюме.** В проблематике художественного творчества Камалы Абиевой поэтически отражаются актуальные вопросы, волнующие общество. Основную линию проблематики её стихотворений на тему Родины составляют тема Родины, тоска по Карабаху, торжество Победы, воспевание Отечественной войны, чувства любви к Родине и народу и др. В основной проблематике художественного творчества Камалы Абиевой не остаются незамеченными выражение её любви и уважения к Родине, а также боль, связанная с разделением азербайджанских земель.

Художественное творчество Камалы Абиевой отображает не только общественно-политические проблемы, но и эмоционально-чувственное восприятие природы.

Поэтические образы Камалы Абиевой отличаются художественным богатством и многообразием. В галерее образов поэтессы можно включены такие художественные образы как образ шахида, образ Родины, образ матери, авторское «я» и т.д.

Поэзия Камалы Абиевой привлекает внимание отличиями поэтического языка, спецификой использования средств художественного изображения и выражения. Четко проявлены такие отличительные черты, как образность, эмоциональность, экспрессивность, поэтичность и др.

**Ключевые слова:** Камала Абиева, поэт, поэтические примеры, художественные произведения